**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

**HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN**

**HƏYAT VƏ FƏALİYYƏTİNİN XRONOLOGİYASI**

## 1923-1969

| | |
|---|---|
| **1923-cü il 10 may** | Naxçıvan şəhərində anadan olmuşdur. |
| **1938-1939-cu illər** | Naxçıvan Pedaqoji Məktəbində təhsil almışdır. |
| **1939-1941-ci illər** | Azərbaycan Sənaye İnstitutunun (indiki Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. |
| **1941-1943-cü illər** | Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri işləmişdir. |
| **1943-1944-cü illər** | Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri işləmişdir. |
| **1944-1949-cu illər** | Naxçıvanda dövlət təhlükəsizliyi orqanlarında müxtəlif vəzifələrdə - əməliyyat müvəkkili baş əməliyyat müvəkkili, şöbə müdiri vəzifələrində çalışmışdır. |
| **1945-ci il** | Kommunist Partiyası sıralarına daxil olmuşdur. |
| **“1941-1945-ci illər** | Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalı ilə təltif olunmuşdur. |
| **1945-ci il 6 iyun** | “1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə” medalı ilə təltif olunmuş-dur. |
| **1947** | Naxçıvan MSSR dövlət təhlükəsizliyi orqanında şöbə rəisi təyin edilmişdir. |
| **1948-ci il 22 fevral** | “Sovet Ordusunun və Donanmasının 30 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1949-cu il 27 may** | “Əmək rəşadətinə görə” medalı ilə təltif olunmuşdur. |
| **1949-1950-ci illər** | SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Leninqraddakı (Sankt-Peterburq) rəhbər kadrların hazırlığı məktəbində təhsil almışdır. |

| | |
|---|---|
| **1950-ci il 25 avqust** | Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitə-sinin 2-ci şöbəsində 6-cı bölmənin rəisi təyin edilmişdir. |
| **1951-1957-ci illər** | Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsində təhsil almışdır. |
| **1953-cü il** | Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi təyin edilmişdir |
| **1954-cü il** | Zərifə Əliyeva ilə ailə həyatı qurmuşdur. |
| **1954-cü il 5 noyabr** | “Döyüş xidmətlərinə görə” medalı ilə təltif olun-muşdur. |
| **1955-ci il 12 oktyabr** | Qızı Sevil Əliyeva anadan olmuşdur. |
| **1957-ci il 18 dekabr** | “SSRİ Silahlı Qüvvələrinin 40 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1958** | Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi təyin edilmişdir. |
| **1959-cu il 2 dekabr** | II dərəcə “Nümunəvi xidmətə görə” medalı ilə təltif olunmuşdur. |
| **1960-cı il 15 aprel** | “Dövlət təhlükəsizliyi orqanının fəxri əməkdaşı” nişanı ilə təltif olunmuşdur. |
| **1961-ci il 24 dekabr** | Oğlu İlham Əliyev anadan olmuşdur. |
| **1962-ci il 26 may** | SSRİ-nin dövlət təhlükəsizliyinin təmin edilmə-sində xidmətlərinə görə ”Qırmızı Ulduz” ordeniilə təltif olunmuşdur. |
| **1964-cü il 9 yanvar** | Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. |
| **1964-cü il, 2 mart** | Azərbaycan SSR Nazirlər Sovetinin yanında DövlətTəhlükəsizliyi Komitəsi sədrinin mavini təyin edilmişdir. |
| **1964-cü il 4 dekabr** | I dərəcə “Nümunəvi xidmətə görə” medalı ilə təltif olunmuşdur. |
| **1965-1967-ci illər** | Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini vəzifəsində çalışmışdır. |
| **1965-ci il 31 mart** | Polkovnik rütbəsi verilmişdir. |

| | |
|---|---|
| **1965-ci il 7 may** | “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1966-cı il fevral-may** | SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Moskvadakı F.Dzerjinski adına Ali Məktəbdə rəhbər kardların təkmilləşdirilməsi kursunun müdavimi olmuşdur. |
| **1967-ci il 22 iyun**<br>**1969-cu il 14 iyul** | Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində işləmişdir. |
| **1967-ci il 19 mart** | Culfa rayonundan 7-ci çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir |
| **1967-ci il 30 oktyabr** | General-mayor rütbəsi verilmişdir. |
| **1967-ci il 20 noyabr** | “Sovet milisinin 50 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1967-ci il 15 dekabr** | “ÜFK-DTK-nın 50 illiyi” nişanı ilə təltif olunmuş dur. |
| **1967-ci il 26 dekabr** | “SSRİ Silahlı Qüvvələrinin 50 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1968-ci il 28 may** | “SSRİ Sərhəd Qoşunlarının 50 illiyi” yubiley nişanı ilə təltif olunmuşdur. |

## 1969-1982-ci illər

| | |
|---|---|
| **1969-cu il 14 iyul** | Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilmişdir**.** |
| **1969-cu il 6 avqust** | Azərbaycan SSR Ali Sovetin yeddinci çağırış beşinci sessiyasında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvü seçilmişdir. |
| **1970-ci il yanvar** | “Ekonomiçeskaya qazeta”-nın 2-ci nömrəsində V. İ. Leninin anadan olmasının 100 illiyi ilə bağlı məqaləsi dərc olunmuşdur. |
| **1970-ci il 20 mart** | Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1970-ci il 15 aprel** | “V. İ. Leninin anadan olmasının 100 illiyi şərəfinə rəşadətli əməyə görə” yubiley medalı ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **1970-ci il 14 iyun** | Bakı şəhəri Leninneft seçki dairəsindən 8-ci çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir. |
| **1970-ci il 30 sentyabr** | Azərbaycan SSR-in və Azərbaycan KP-nin 50 illiyinə həsr olunmuş şənliklərdə iştirak etmək üçün Bakıya gəlmiş Sov. İKP MK-nın Baş katibi L. İ. Brejnevi qarşılamışdır. |
| | Sov. İKP MK-nın Baş katibi L. İ. Brejnev Azərbaycanı "Oktyabr İnqilabı ordeni" ilə təltif etmişdir. |
| **1971-ci il 1 aprel** | Sov. İKP-nin XXIV qurultayında nitq söyləmiş-dir. Sov. İKP MK-nın üzvü seçilmişdir. |
| **1971-ci il 10-13 iyun** | Bakı şəhəri Leninneft seçki dairəsindən 8-ci çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. |
| **1971-ci il 14-19 iyun** | Sov. İKP MK-nın baş katibi L. İ. Brejnevin Almaniyaya səfəri zamanı sovet nümayəndə heyətinin tərkibində olmuşdur. |
| **1971-ci il 20 iyun** | Bakıda C. Naxçıvanski adına Respublika Orta İxtisaslaşdırılmış İnternat məktəbinin açılış mərasimində iştirak etmişdir. |
| **1971-ci il 25 avqust** | **"**Lenin" ordeni ilə təltif olunmuşdur. |
| **1972-ci il 6 noyabr** | Bakı metropolitenin üç stansiyasının - "Əziz-bəyov" (hazırda "Koroğlu"), "Avrora" (hazırda "Qara Qarayev) və "Neftçilər" stansiyalarının açılış mərasimində iştirak etmişdir. |
| **1972-ci il 11 dekabr** | V. İ. Lenin adına sarayın (hazırda Heydər Əliyev Sarayı) açılış mərasimində iştirak etmişdir. |
| **1973-cü il 8 may** | Anadan olmasının 50 illik yubileyi ilə əlaqədar SSRİ Ali Sovetinin fərmanı ilə "Lenin" ordeni ilə təltif edilmişdir. |
| **1973-cü il 18 iyul** | Kremldə SSRİ Ali Sovetinin sədri N. V. Podqornı tərəfindən Lenin ordeni təqdim olunmuşdur. |
| **1974-1979** | SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini ol - muşdur. |

| | |
|---|---|
| **1974-cü 26 iyun** | Bakı şəhəri Leninneft seçki dairəsindən 9-cu çağırış SSRİ Ali Sovetinə deputat seçilmişdir. |
| **1974-cü il 28 avqust** | Sovet İttifaqının aparıcı ali məktəblərinə oxumağa gedən azərbaycanlı tələbələrlə görüşmüşdür. |
| **1975-ci il 25 mart** | Azərbaycan kinematoqrafçılarının III qurultayında iştirak etmişdir. |
| **1975-ci il 3 aprel** | Xa Txi Kuenin başçılıq etdiyi Vyetnam Zəhmətkeşlər Partiyasının Mərkəzi Komitəsinin nəzdində Partiya nəzarəti Komitəsinin nümayəndə heyətini qəbul etmişdir. |
| **1975-ci il 25 aprel** | “1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi” yubiley medalı ilə təltif olunmuşdur. |
| **1975-ci il 12 may** | Atif Purivatrın başçılıq etdiyi Yuqoslaviyanın Sarayevo şəhərinin nümayəndə heyətini qəbul etmişdir. |
| **1975-ci il 30 may** | Azərbaycan KP MK-da keçirilən müşavirədə nitq söyləmişdir. |
| **1975-ci il 9 iyun** | Zevin adına (indiki M. Şəhriyar adına) uşaq kitabxanasını ziyarət etmişdir. |
| **1975-ci il 15 iyun** | Bakı şəhəri Leninneft seçki dairəsindən 9-cu çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir. |
| **1975-ci il 30 iyul** | Azərbaycan KP MK-nın plenumunda məruzə etmişdir. |
| **1976-cı il 28 yanvar** | Azərbaycan Kommunist Partiyasının XXIX qurultayında hesabat məruzəsi ilə çıxış etmişdir. |
| **1976-cı il 29 yanvar** | Azərbaycan Kommunist Partiyasının XXIX qurultayında yekun nitqi söyləmişdir. |
| **1976-cı il 3 fevral** | Cənubi Qafqaz hərbi dairəsinin poliqonunda “Qafqaz-76” hərbi təlimlərinə baxışda iştirak etmişdir. |
| **1976-cı il 26 fevral** | Sov. İKP-nin XXV qurultayında məruzə etmişdir. |
| **1976-cı il 5 mart** | Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdir. |

| | |
|---|---|
| **1976-cı il 3 noyabr** | Bəxtiyar Vahabzadəyə Respublika Dövlət mükafatı laureatının diplomunu və medalını təqdim etmişdir. |
| **1976-cı il 18 noyabr** | Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə keçirilən yubiley gecəsində çıxış etmişdir. |
| **1976-cı il 27 dekabr** | "Lenin" ordeni ilə təltif olunmuşdur. |
| **1976-cı il 31 dekabr** | Bakı metropolitenin "Nizami" stansiyasının açılış mərasimində iştirak etmişdir. |
| **1978-ci il 28 yanvar** | "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. |
| **1978-ci il 4 fevral** | Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə keçirilən təntənəli gecədə iştirak etmişdir. |
| | Q. Qarayevə Lenin ordeni və "Oraq və çəkic" qızıl medalının təqdim edilməsi mərasimində çıxış etmişdir. |
| **1978-ci il 22 sentyabr** | Azərbaycanın paytaxtına "Lenin ordeni" nin təqdim edilməsi münasibətilə təntənəli yığıncaqda nitq söyləmişdir. |
| | Azərbaycanın paytaxtına "Lenin ordeni"nin təqdim edilməsi münasibətilə təntənəli yığıncaqda Sov. İKP MK-nın Baş katibi L. İ. Brejnev nitq söy-ləmişdir. |
| **1979-cu il 24 avqust** | SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Lenin" ordeni və "Oraq və Çəkic" qızıl medalı ilə təltif edilməklə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. |
| **1979-cu il 6 sentyabr** | Kremldə Sov. İKP MK-nın Baş katibi, SSRİ Ali Sovetinin Sədri L. İ. Brejnev tərəfindən "Lenin" ordeni və Sosialist Əməyi qəhrəmanının "Oraq və Çəkic" qızıl medalı təqdim edilmişdir və mərasimdə çıxış etmişdir. |
| **1980-ci il 20 fevral** | Bakıda Nəsiminin heykəlinin açılış mərasimində iştirak etmişdir. |
| **1980-ci il 22 mart** | Azərbaycan komsomoluna Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı MK-nın Qırmızı |

| | |
|---|---|
| | Bayrağının təqdim edilməsinə həsr olunmuş təntənəli yığıncaqda çıxış etmişdir. |
| | Xalq yazıçısı Süleyman Rəhimovun anadan olmasının 80 illiyi münasibətilə keçirilən yubiley mərasimində iştirak etmişdir. |
| **1982-ci il 14 yanvar** | Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı mərasimində çıxış etmişdir. Vaqif Poeziya evinin açılışı mərasimində çıxış etmişdir. Şuşa Tarix muzeyi ilə tanış olmuşdur. |
| **1982-ci il 10 mart** | "Oktyabr İnqilabi" ordeni ilə təltif olunmuşdur. |
| **1982-ci il 22 mart** | Cəfər Cabbarlının heykəlinin açılış mərasimində nitq söyləmişdir. Cəfər Cabbarlının Bakıdakı ev-muzeyini ziyarət etmişdir. |
| **1982-ci il 9 may** | C. Naxçıvanski adına respublika hərbi internat məktəbində olmuşdur. |
| **1982-ci il 17 may** | "Kiyevin 1500 illiyi" xatirə medalı ilə təltif olunmuşdur. |
| **1982-ci il 18 may** | Bəstəkar Qara Qarayevin dəfn mərasimində nitq söyləmişdir. |
| **1982-ci il 10 iyun** | Bakıda görkəmli müğənni Bülbülün xatirə ev-muzeyinin açılışında iştirak etmişdir. |
| **1982-ci il 18 iyun** | Sov. İKP MK-nın 1982-ci il may plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri haqqında Azərbaycan KP MK-nın plenumunda məruzə ilə çıxış etmişdir. |
| **1982-ci il 29 iyul** | Şuşada bir qrup Azərbaycan yazıçıları ilə Vaqif poeziya günlərində iştirak etmişdir. |
| **1982-ci il 1-2 oktyabr** | Naxçıvan MSSR-ə səfər etmişdir. |
| **1982-ci il 18 oktyabr** | M. F. Axundovun anadan olmasının 170 illiyi şərəfinə keçirilən mərasimdə iştirak etmişdir. |
| **1982-ci il 22 noyabr** | Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilmişdir. |
| **1982-ci il 24 noyabr** | SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilmişdir. |

| | |
|---|---|
| **1982-ci il 3 dekabr** | Azərbaycan KP MK-nın I katibi vəzifəsindən azad edilmişdir. Plenumda nitq söyləmişdir. |
| **1982-ci il 6 dekabr** | Moskvaya yola düşmüşdür. |
| **1982-ci il 13 dekabr** | SSRİ Yollar Nazirliyinin geniş kollegiya iclasına sədrlik etmişdir. |
| **1983-cü il 4 mart** | Baykal-Amur dəmiryol xəttinin tikintisi üzrə hökumət komissiyasının ilk iclasına sədrlik etmişdir. |
| **1983-cü il 7 mart** | SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Lenin" ordeni və ikinci dəfə "Oraq və Çəkic" qızıl medalı ilə təltif edilmiş və vətənində büstü-nün qoyulması haqqında qərar qəbul edilmişdir. |
| **1983-cü il 14 aprel** | İttifaqlar Evində görkəmli Azərbaycan dirijoru və bəstəkarı Niyazinin 70 illiyinə həsr olunmuş gecədə iştirak etmişdir. 1983-cü il 9 may "Georgi Dimitrov" ordeni ilə təltif olunmuşdur. |
| **1984-cü il 8 iyun** | "Komsomolsk-Amurun 50 illiyi" yubiley nişanı ilə təltif olunmuşdur. |
| | ÜİLKGİ MK-nın "60 il V.İ. Leninin adı ilə" fəxri nişanı almışdır. |
| | "Qırğızıstan SSR- in və Qırğızıstan Kommunist Partiyasının 60 illiyi" xatirə medalı verilmişdir |
| **1985-ci il 24 yanvar** | "25 il. Patris Lumumba adına Xalqlar Dostluğu Universiteti" medalı ilə təltif olunmuşdur. |
| **1985-ci il 12 aprel** | "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 40 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. |
| **1985-ci il 15 aprel** | Həyat yoldaşı Zərifə Əziz qızı Əliyeva vəfat etmişdir. |
| **1985-ci il 19 aprel** | "I dərəcə Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur. |
| **1987-ci il 21 oktyabr** | Sov. İKP MK-nın plenumu səhhəti ilə əlaqədar Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyün-dən azad etmişdir. |
| | SSRİ Nazirlər Sovetinin nəzdində dövlət müşaviri təyin edilmişdir. |

| | |
|---|---|
| **1987-ci il 24 oktyabr** | Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və M. Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifədən istefa vermişdir. |
| **1988-ci il 28 yanvar** | "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. |
| **1988-ci il 21 sentyabr** | "Literaturnaya qazeta"da Heydər Əliyevin əleyhinə təşkil edilmiş "Sürəkli alqışlar" adlı məqalə dərc edilmişdir. |
| **1988-ci il 21 sentyabr** | "Sosialistiçeskaya industriya" qəzetində Heydər Əliyev əleyhinə "Tayfabazlığın məngənəsində" adlı sifarişli məqalə dərc edilmişdir. |
| **1988-ci il noyabr** | Öz xahişi ilə SSRİ Nazirlər Sovetinin nəzdində dövlət müşaviri vəzifəsindən azad olunmuşdur. |
| **1989-cu il 24 aprel** | Təqaüd yaşının çatması səbəbilə Sov. İKP MK üzvlüyündən azad edilmişdir. |
| **1990-cı il 20 yanvar** | Azərbaycanın Moskvadakı daimi nümayəndəsi S. İbrahimov "Barvixa" sanatoriyasında müalicə olunan Heydər Əliyevə zəng edərək Yanvar faciəsi barədə məlumat vermişdir. |
| **1990-cı il 21 yanvar** | Azərbaycanın Moskvadakı daimi nümayəndə-liyinə gələrək, yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qırğınlar ilə əlaqədar bəyanat vermişdir. |
| **1990-cı il 20 iyul** | Moskvadan Bakıya qayıtmışdır. |

## 1990-1993

| | |
|---|---|
| **1990-cı il 22 iyul** | Naxçıvana gəlişi münasibətilə şəhər meydanında əhali ilə görüşü olmuşdur. |
| **1990-cı il 21 avqust** | Naxçıvan MSSR Ali Sovetinin Rəyasət heyəti Heydər Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə qərar qəbul etmişdir. |
| **1990-cı il 30 sentyabr** | Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Muxtar Respublikası Ali Sovetinə Naxçıvandan deputat seçilmişdir. |
| **1991-ci il 30 avqust** | Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycanın müstəqillik Bəyannaməsi" ilə bağlı çıxış etmişdir. |

| | |
|---|---|
| **1991-ci il 3 sentyabr** | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmişdir. |
| **1992-ci il 22-25 mart** | Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özalın və Baş nazir Süleyman Dəmirəlin xüsusi dəvəti ilə Türkiyəyə rəsmi səfərə yola düşmüşdür |
| | Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalla təkbətək görüşmüşdür. |
| | Baş nazir Süleyman Dəmirəllə təkbətək görüşmüşdür. |
| **1992-ci il 5 noyabr** | Yeni Azərbaycan Partiyasının təsis edilməsi üçün yaradılan təşkilat komitəsinin sədri seçilmişdir . |

## 1993-2003

| | |
|---|---|
| **1993-cü il 13-14 iyun** | 1993-cü il 4 iyun hadisələrini araşdırmaq üçün Gəncədə olmuşdur. |
| **1993-cü il 15 iyun** | Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. |
| **1993-cü il 18 iyun** | Prezident Əbülfəz Elçibəyin gecəyarısı Bakını tərk edib Kələki kəndinə getməsi ilə əlaqədar yaranmış vəziyyətlə əlaqədar televiziya ilə xalqa müraciət etmişdir. |
| **1993-cü il 3 oktyabr** | 9 saylı Səbail dairə seçki komissiyasının T. İsmayılov adına yaradıcılıq sarayında yerləşən 12 saylı seçki məntəqəsində Azərbaycanın üçüncü prezidentini seçmək üçün keçirilən səsvermədə iştirak etmişdir. |
| | Ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. |
| **1993-cü il 19-22 dekabr** | Fransada rəsmi səfərdə olmuşdur. |
| **1994-cü il 4-5 yanvar** | Hərbi quruculuq məsələlərinə həsr olunmuş müşavirə keçirmişdir. |
| | Cəbhə bölgələrinə səfər etmişdir. |
| **1994-cü il 12 yanvar** | 20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə Dövlət Komissiyasının iclasını keçirmişdir. |
| **1994-cü il 8-11 fevral** | Türkiyə Cümhuriyyətində rəsmi səfərdə olmuşdur. |

| | |
|---|---|
| **1994-cü il 22-25 fevral** | İngiltərənin baş naziri Con Meycorun dəvəti ilə Böyük Britaniyada rəsmi səfərdə olmuşdur. |
| **1994-cü il 26 fevral** | Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏM-in verdiyi təkliflərin müzakirəsinə həsr olunmuş müşavirə keçirmişdir. |
| **1994-cü il 7-11 mart** Çin | Xalq Respublikasında rəsmi səfərdə olmuşdur. |
| **1994-cü il 12 aprel** | Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün güclənməsi ilə bağlı televiziya və radio ilə xalqa müraciət etmişdir. |
| **1994-cü il 3-5 may** | 3 may Belçikaya rəsmi səfərə yola düşmüşdür. |
| **1997-ci il 27 mart** | Kiyevdə Ukraynanın ali mükafatı "Yaroslav Mudrı" ordeni ilə təltif olunmuşdur. |
| | Türkiyənin "Dövlət nişanı" ordeni ilə təltif olunmuşdur. |
| **1998**-ci il | Bürc ulduzuna Heydər Əliyevin adının verilməsi haqqında Rusiyanın "Kosmos-Yer" Elmi-Texniki Mərkəzinin sertifikatı təqdim edilmişdir |
| | Beynəlxalq Kadr Akademiyası "Elm və təhsilin inkişafına görə" beynəlxalq ordenlə təltif etmişdir.<br>Qazaxstanın "Astana" medalı ilə təltif olunmuş-dur. |
| **1999-cu il** | "Atatürk Sülh Mükafatına" layiq görülmüşdür.<br>Gürcüstanın "Qızıl poçt" ordeninə layiq görülmüşdür. |
| **2001-ci il** | Rusiya Jurnalistlər İttifaqı tərəfindən marşal Jukov adına "Cəsurluğa və vətənə məhəbbətə görə" medalı ilə təltif olunmuşdur. |
| | Ukraynanın "Qloriya populi" Qızıl ulduzu ilə təltif olunmuşdur. |
| | Gürcüstan Respublikasının "Qızıl runo" ordeni təqdim olunmuşdur. |
| | Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi 2001-ci ilin may ayında Bakıda işgüzar səfərdə olarkən Azərbaycan rəhbərinə Rus Pravoslav kilsəsinin "Birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordeni" ilə təltif etmişdir. |

| | |
|---|---|
| | Beynəlxalq Həvəskarlar Boks Assosiasiyasının vitse-prezidenti Emil Jeçev AJBA-nın xatirə medalını təqdim etmişdir. |
| | Türkiyənin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfi "Heydər Əliyev Kültür Mərkəzi" nin yaradılması haqqında qərar qəbul etmişdir. |
| **2002-ci il** | Rusiyanın Müqəddəs Apostol Andrey Pervo-zvannı ordeni ilə təltif olunmuşdur. |
| | "Qızıl bayraq" fərqlənmə nişanı təqdim olunmuşdur. |
| | İhsan Doğramacı Fondunun Beynəlxalq Qızıl Sülh medalı təqdim olunmuşdur. |
| | Avropa Güləş Federasiyasının "Qızıl boyunbağı" fərqlənmə nişanı. |
| **2003-cü il** | Azərbaycanda ilin adamı mükafatına layiq görülmüşdür. |
| | Rusiyanın "Beynəlxalq təhlükəzlik xidmətlərə görə" medalı ilə təltif olunmuşdur. |
| | Rusiyanın ən yüksək, və ən mötəbər mükafatı - Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif edilmişdir. |
| | Azərbaycan Prezidenti Heydər Əliyevə Ukraynanın mədəniyyət ictimaiyyətinin təsis etdiyi "Şərəf" ordeni təqdim olunmuşdur. |
| | Uşaq Fondları Beynəlxalq Assosiasiyasının Lev Tolstoy adına beynəlxalq qızıl medalı ilə təltif olunmuşdur. |
| | 12 dekabrda ABŞ-ın Klivlend klinikasında vəfat etmiş, I Fəxri Xiyabanda dəfn edilmişdir. |
| **2013-cü il 21 yanvar** | Azərbaycan Respublikası Prezidenti Ulu öndərin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. |

| | |
|---|---|
| **2022-ci il 29 sentyabr** | Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam vermişdir. |
| **2022-ci il 28 noyabr** | Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. |
| **2023-cü il 11 aprel** | "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. |